Mədəni-maarif.-2005.-№3



# YARADICI MƏDƏNİYYƏT İŞÇİSİ

Mükafat Elşad oğlu Yaqubov 1962-ci ildə Lerik rayonunun Kələxan kəndində anadan olmuşdur. O, bacarıqlı, təvazökar, təmkinli, işgüzar olması ilə hamının hörmətini qazanmışdır. Hələ orta məktəbdə oxuyarkən bədii yaradıcılığa başlayan Mükafat Yaqubov "Göyərçin", "Azərbaycan pioneri" (indiki "Günəş") jurnallarında, Lerik rayonunda çıxan "Bolluq işığında" qəzetində şer və hekayələri ilə çıxış etmişdir.

Bədii yaradıcılığa olan həvəsi onu Azərbaycan Dövlət İncəsənət İnstitutuna gətirib çıxarmışdır. 1984-cü ildə ali təhsilini bitirdikdən sonra M.Yaqubov ordu sıralarına çağırılmış, ordudan qayıtdıqdan sonra Lerik rayon mədəniyyət evində fəaliyyətə başlamışdır.

Asudə vaxtın təşkili, gənclərlə işləmək məqsədilə rayonda ilk dəfə "Gənclik" Mədəniyyət Mərkəzi təşkil etməsi onun bacarıqlı bir gənc olduğunu sübut etmişdir. Bacarığına görə rayon rəhbərliyi, o vaxt onu rayon partiya komitəsində işə dəvət etmişdi. 1988-ci ildə Lerik Rayon Komsomol Komitəsinin katibi, sonralar isə II katibi seçilmişdi. Uzun illər ərzində rayonun bütün mədəni-ədəbi, ictimai tədbirlərini hazırlamışdır.

Hazırda M.Yaqubov Lerik rayon uzunömürlülər muzeyinin müdiri vəzifəsində çalışır. Onun səyi nəticəsində muzey təmir olunmuş, Lerik Rayon Mədəniyyət Şöbəsinin müdiri cənab Həmzə Vəliməmmədovun bilavasitə köməyi ilə muzeyə mebel və başqa yeni avadanlıqlar alınmışdır. M.Yaqubov xalqımızın canlı tarixi olan Lerik uzunömürlülərinin həyat və fəaliyyəti ilə bağlı maraqlı materiallar və eksponatlar toplayır.

Bütün ictimai fəaliyyəti ərzində M.Yaqubov bədii yaradıcılıqdan da ayrılmamış, "Yük", "Qapı döyüldü", "İlğım" hekayələri ilə "Məşəl", "Ulduz" jurnallarında, Lerikdə çıxan rayon qəzetində Mükafat Yaqub imzası ilə çıxış edir. Bədii yaradıcılıqla yanaşı o, publisistikaya da geniş yer verir: "Köçənlər və köçürülənlər", "Zülm ilə ayırdılar", "Keçmə namərd körpüsündən", "Könüllərin səyyahı" və s. publisistik yazıları Azərbaycan xalqının başına gətirilən ədalətsizliklərdən bəhs edir. 1987-ci ildə yazdığı "Yük" adlı hekayəsinin çapına o dövrdə heç bir qəzet və jurnal cəsarət etməmişdir. Çünki hekayət Azərbaycan torpaqlarının iki amansız imperiya tərəfindən bölünməsinə və Azərbaycan xalqının bu imperiyaların ədalətsiz siyasətinə qarşı mübarizəsinə həsr olunmuşdu. Yalnız Azərbaycan müstəqillik qazandıqdan sonra "Yük" hekayəsi "Məşəl" jurnalında dərc olundu və Azərbaycan radiosunda səsləndirildi. "Yük" iki yerə bölünmüş Azərbaycan xalqının birləşənə qədər boynundan asılmış mənəvi borcudur.

Hələ Sovet hakimiyyətinin mövcud olduğu illərdə M.Yaqubov yazırdı: "Azərbaycan titul vərəqi cırılmış, səhifələrinin yarıdan çoxu tökülüb itmiş kitaba bənzəyir".

Yazıçı-publisist Mükafat Yaqubov Lerik uzunömürlüləri haqqında da kitab yazmaq fikrindədir. Ona şəxsi həyatında və yaradıcılığında müvəffəqiyyətlər arzulayırıq.

**Ağaş Mirzəyev,**

**Lerik rayonundakı Azərbaycan kənd kitabxanasının müdiri, əmək veteranı.**